Səh. 2 S(AB)U(N)SUZ
Səh. 3 KORONAVİRUSU QƏLB VİRUSUNA ÇEVİRMƏYƏK
Səh. 4 2020-2021-Cİ TƏDRİS İLİ ÜÇÜN BİRİNCİ SİNİFLƏRİN QEYDİYYATI MARTIN 2-DƏN BAŞLAYIR
Səh. 5 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 5 QAL, SƏNƏ QURBAN, BƏLKƏ NƏSƏ OLUR
Səh. 6 KİMDİR TƏRBİYƏSİZ?
Səh. 7 GÜNÜMÜZDƏ AİLƏ DƏYƏRLƏRİ
Səh. 7 SİNİF RƏHBƏRİNİN ƏLAVƏSİ NEÇƏ LARİDİR VƏ ONLARIN HANSI ÖHDƏLİKLƏRİ VAR?

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

29 FEVRAL
2020-Cİ İL
№004 (108)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXMA AŞKARLANDI



Fevralın 26-sı Gürcüstanda ilk koronavirusa yoluxma halı qeydə alınıb. Virus İrandan Azərbaycan vasitəsilə qayıdan Gürcüstan vətəndaşında müəyyən edilib. O, birbaşa Tbilisi Yoluxucu Xəstəliklər Xəstəxanasının izolyasiya bölməsinə yerləşdirilib. Fevralın 28-i isə Gürcüstanda koronavirusa ikinci yoluxma halı qeydə alınıb. Virus İtaliyadan qayıdan Gürcüstan vətəndaşında təsdiq olunub.

Qeyd edək ki, Gürcüstanın Xarici İşlər Nazirliyi (XİN) vətəndaşlara müraciət edərək onları koronavirusun yayıldığı ölkələrə səfərlərdən çəkinməyə çağırıb.

XİN-nin müraciətində qeyd olunub ki, koronavirusun Gürcüstanda yayılmasının qarşısının alınması üçün Çin, İran, İtaliya və Cənubi Koreyaya səfər və səyahətlərin edilməsi tövsiyə olunmur.

Koronavirusun yayılmasının qarşısının alınması məqsədi ilə Gürcüstandan İran və İtaliyaya yük və sərnişin daşımalarına icazələrin verilməsi dayandırılıb.

## MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASINA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri ölkənin Milli Təhlükəsizlik Şurasına rəhbərlik edəcək. Bu barədə baş nazir Giorgi Qaxaria hökumətin iclasında bildirib.

Onun sözlərinə görə, Təhlükəsizlik Şurası effektiv fəaliyyət göstərməli olan olduqca vacib orqandır. "Cari vəziyyətdən irəli gələrək Təhlükəsizlik Şurasının yeni rəhbərini sizə təqdim edirəm. Bu, daxili işlər naziri Vaxtanq Qomelauridir", - deyən G.Qaxaria V. Qomelaurini bu vəzifəyə təyinatı ilə bağlı təbrik edib.

Qeyd edək ki, bu vaxta qədər Milli Təhlükəsizlik Şurasının katibi Levan İzoria idi. O, ötən ay bu vəzifə ilə yanaşı Kəşfiyyat Xidmətinin rəhbərliyindən də istefa verib.

## GÜRCÜSTAN TÜRKİYƏNİ DƏSTƏKLƏYİR



Gürcüstanın xarici işlər nazirinin müavini Aleksandre Xvtisiaşvili Türkiyənin Gürcüstandakı səfirliyinin nümayəndəsi Onur Sevimlə görüşüb. Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.

Görüşdə Suriyanın İdlib bölgəsindəki vəziyyət müzakirə olunub. O.Sevim Türk Silahlı Qüvvələrinə qarşı törədilmiş hava hücumu barədə məlumat təqdim edib.

A.Xvtisiaşvili Gürcüstanın Türkiyəyə dəstəyini ifadə edərək hücumu qınayıb. O, şəhid olan əsgərlərlə bağlı Türkiyəyə başsağlığı verib.

"Gürcüstan Suriyadakı hadisələri diqqətlə izləyir. Türkiyə Gürcüstanın strateji tərəfdaşıdır. Gürcüstan türk hərbi qulluqçularının öldürülməsindən narahatdır", - deyə XİN rəsmisi bildirib.

Tərəflər Suriyada vəziyyətin deeskalasiyasında beynəlxalq ictimaiyyətin daha fəal iştirak edəcəyinə ümidvar olduqlarını bildiriblər.

## SOVET ORDUSUNUN GÜRCÜSTANI İŞĞALINDAN 99 İL ÖTÜR



Gürcüstanın Sovet ordusu tərəfindən işğalının 99-cu ildönümü münasibətilə fevralın 25-i ölkənin bütün dövlət qurumlarında, diplomatik nümayəndəliklərində bayraqlar endirilib.

Dövlət bayraqları prezidentin sarayı, parlament, hökumət və digər dövlət idarələrinin binalarında da endirilib.

Qeyd edək ki, 1921-ci ilin fevralın 25-də Qırmızı ordu Tbilisiyə daxil olub və Gürcüstan Demokratik Respublikasını devirib.

Gürcüstan parlamentinin 2010-cu il 21 iyul tarixli qərarı ilə fevralın 25-i Sovet işğalı günü elan olunub. Ölkə üzrə dövlət bayraqları hər il məhz bu tarixdə işğalın yüz minlərlə qurbanının xatirəsinə ehtiram əlaməti olaraq endirilir.



# S(AB)U(N)SUZ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

$C_{17}H_{35}OOM$ , $C_{17}H_{35}OONa$, $C_{17}H_{35}OOK$… Qorxmayın, bu hərf və rəqəmlərdən ibarət kombinasiyalar ən yeni koronavirusun zadın kodu deyil. Bu, sabundur.

Birinci sabunun ümumi kimyəvi formulu, ikinci bərk sabunun, üçüncü isə maye sabunun kimyəvi formuludur.

Bitki və heyvan yağlarının tərkibindəki yağ turşusunun duzundan düzəldilən sabun bəşəriyyətin ən gözəl ixtiralarından biridir. Sabun sözünün dilimizə Avropa dillərindən gəldiyi bildirilir. Dilimizdə bu sözün müxtəlif mənalarda işlədildiyini nəzərə alaraq xarici mənbələrə üz tutsaq yaxşıdır.

Tarixi mənbələrə görə, sabunun hazırlanması eramızdan əvvəl təxminən 2800-cü il Şumer və Babil sivilizasiyalarına qədər gedib çıxır. Qədim Misirdə də müxtəlif yağlardan düzəldilən "sabunlardan" istifadə ediblər.

Bütün yollar Romaya aparır deyimindən tutub yola çıxsaq görərik ki, günümüzdə istifadə etdiyimiz sabunun tarixi yolları qədim Romaya, Sapo dağına aparır. Sabunun adı da məhz bu dağın adından götürüldüyü deyilir – latın dilində *sapo*, qədim ingilis dilində *sape*, qədim fransız dilində *savon*.

Bu gün istifadə etdiyimiz sabunların əksəriyyəti isə 1823-cü ildə fransız kimyaçısı tərəfindən hazırlanan kimyəvi tərkibli sabunlardır, yəni tərkibi kalium və natrium hidroksid duzlarından ibarətdir ki, bunu da kimyaçılar daha yaxşı izah edər.

Son olaraq vurğulamaq istəyirəm ki, 16-17-ci əsrlərdə epidemiyalara qarşı mübarizədə sabunun rolu böyük olub. Bu, tarixdir.

Bu gün isə nə yeni sabun ixtira etməyə ehtiyac var, nə də sabun bişirməyə. Allaha şükür, Mirzə Ələkbər Sabiri, Cəbiş müəllimlərimizi sabun bişirməyə məcbur edən dövrlər də arxada qaldı. Bəlkə də qalmadı. Mağazalardan tutmuş apteklərə kimi müxtəlif ölçüdə, formada, tərkibdə, rəngdə, qoxuda sabun var. Yəqin elə bir ölkə yoxdur ki, orada sabun tapılmasın. Bilmirəm. Bəlkə də var. Varsa, dünyada hələ gigiyenik inqilab olmayıb deməkdir.

Dünya bir yana, bəlkə də elə ölkəmizdə sabun tapmayanlar var. Axı elə kəndlər var əllərini yumaq nədir, içməyə belə su olmur, olsa da rejimlə (sözün bütün mənalarında) verilir. Bu, faktdır.

Sabun su olan yerdə lazımdır. Bəlkə əvvəlcə bütün kəndlərə, bütün evlərə su çəkilsin, sonra isə sabun paylansın və daha sonra koronavirusdan qorunmaq üçün əlləri sabunla ən azı otuz saniyyəyə qədər yumaq məsləhət görülsün. Amerika prezidenti Donald Trampdan tutmuş səhiyyə işçilərinə qədər koronavirusdan qorunmaq üçün əlləri sabunla yumağı məsləhət görür. Evində suyu və sabunu olmayana və ya suyu olub sabunu olmayana, yaxud da sabunu olub suyu olmayana əllərini tez-tez sabunla yumağı məsləhət görmək o deməkdir ki, sən hələ heç nəyə hazır deyilsən – nə qışa, nə yaya, nə aclığa, nə epidemiyaya, nə də Avropaya... Avropalaşmaq da bütün evlərdə 24 saat suyun və sabunun olması ilə başlayır. Məktəblər var müəllimlər və şagirdlər tualetdən sonra əllərini yumağa su tapmırlar. Bu fonda məktəblərə gigiyenaya əməl etməyi məsləhət görmək ya həqiqətən də hər şeyin gözəl olduğuna inanmaqdır, ya da həqiqətən də o məktəbləri görməməkdir. Bu, məzələnməkdir.

Virus gələndə isə nə məzəyə baxır, nə də tibbi maskaların qiymətinə. Qiymət demiş, belə hallarda fürsətdən istifadə edib aptekləri dəllal bazarına çevirənlər koronavirusdan da təhlükəlidirlər – insanlıq üçün, səhiyyə üçün, ölkə üçün. Və ilkin profilaktika işləri məhz onlara qarşı aparılmalıdır.

Təklif edirəm, seçkiqabağı tipli kampaniyalarda sabun köpüyü əvəzinə hərəyə bir sabun paylansın və televiziya və radiolarda sabun operası əvəzinə sabundan istifadə qaydaları əhaliyə çatdırılsın ki, sabundan təyinatı ilə düzgün istifadəni heç kəs saxtalaşdıra bilməsin. Bu, siyasət deyil.

Əlləri isə sabunla tez-tez yumaq virusa yoluxmaq halını həqiqətən də azaldır. Bu, kimya və statistikadır.

Sonda isə sadəcə olaraq maraqlı məlumat kimi qeyd etmək istəyirəm ki, Sabunotu adlı bitki var ki, Gürcüstanda dörd növü yetişir. Dərman bitkisi olan Sabunotunun kökü zəhərlidir və sabun kimi köpüklənir. Bu isə, botanikadır.

# TÜRKİYƏ SƏFİRİ: "GÜRCÜSTANLA SƏRHƏDDƏ KORONAVİRUSLA BAĞLI QABAQLAYICI TƏDBİRLƏR GÖRÜLÜR"



"Türkiyə-Gürcüstan sərhədində aidiyyəti qurumlar koronavirisun yayılmasının qarşısını almaq üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirir". Bu barədə Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan bildirib.

Səfir Gürcüstanda koronavirusun aşkarlanması faktına təəssüfləndiyini deyib.

"Bir çox ölkələr Gürcüstandan tranzit ölkə kimi istifadə edir. Vətəndaşlar Ümumdünya Səhiyyə Təşkilatının koronavirusdan qorunmaqla bağlı tövsiyələrinə riayət etməlidirlər. Ümid edirəm ki, virusun yayılması ehtimalı minimuma bərabərdir", - səfir bildirib.

# VANO MERABİŞVİLİ AZADLIĞA BURAXILIB



Gürcüstanın keçmiş baş naziri və daxili işlər naziri Vano Merabişvili azadlığa buraxılıb. 6 il 9 ay həbsdə olan sabiq nazir "Matrosov" adlanan həbsxananı fevralın 20-si tərk edib.

V.Merabişvilini yaxınları və dostları qarşılayıblar.

Qeyd edək ki, V.Merabişvili 2013-cü ilin mayında korrupsiya və vəzifə səlahiyyətlərindən sui-istifadə daxil olmaqla bir neçə cinayət işi üzrə həbs olunub.

Xatırladaq ki, V.Merabişvili 2004-2012-ci illərdə daxili işlər naziri, 2012-ci ilin iyul ayından oktyabr ayına qədər isə baş nazir vəzifəsini tutub.

# OMBUDSMAN: GÜRCÜSTANDA ETNİK ZƏMİNDƏ AYRI-SEÇKİLİK HALLARI ARTIB



Gürcüstanın Ombudsman Aparatına ötən il diskiriminasiya ilə bağlı 155 şikayət daxil olub. Bunu insan haqları üzrə müvəkkil Nino Lomcaria bildirib.

Onun sözlərinə görə, şikayətlərin 14%-i dini, 4%-i isə etnik zəmində ayrı-seçkiliklə bağlı olub.

Ombudsman deyib ki, illik müqayisədə dini zəmində diskriminasiya halları ilə bağlı müraciətlər azalıb, etnik ayrı-seçkiliklə bağlı isə artıb: "2018-ci ildə dini zəmində şikayətlərin göstəricisi 11%, etnik zəmində isə 8% təşkil edib".

N.Lomcaria qeyd edib ki, diskriminasiya ilə bağlı şikayətlərin 61%-i dövlət, 39%-i isə özəl sektorun payına düşüb.

# GÜRCÜSTANIN YENİ BAŞ PROKURORU TƏSDİQLƏNİB



Gürcüstan parlamenti İrakli Şotadzeni ölkənin baş prokuroru vəzifəsinə təsdiq edib. İ.Şotadzenin namizədliyinin lehinə 82 deputat səs verib.

İkinci dəfə Gürcüstanın baş prokuroru olan İ.Şotadze növbəti 6 ildə bu vəzifəni tutacaq.

Qeyd edək ki, Gürcüstanın baş prokuroru Şalva Tadumadze ötən il dekabrın 12-də vəzifəsindən gedib. Buna səbəb onun Ali Məhkəmənin hakimi kimi təsdiqlənməsi olub.

İ.Şotadze isə 2018-ci il mayın 31-də istefa verib. O, bu vəzifəni 2015-ci ilin noyabrın 27-dən tutub. Onun istefasına səbəb Baş Prokurorluğun 2017-ci ilin dekabrın 1-də Tbilisidə 51 saylı ictimai məktəbin iki şagirdinin qətli ilə bağlı səs-küylü məhkəmə qərarını qüvvədə saxlamasından sonra kütləvi etirazlar olub.

# QARDABANİDƏ XOCALI SOYQIRIMI İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) və Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyinin birgə təşkilatçılığı ilə GYMD-nin Qardabanidəki ofisində Xocalı soyqırımı ilə bağlı tədbir keçirilib.

Tədbirdə faciə qurbanları bir dəqiqəlik sükutla yad edilib və ruhlarına Quran ayələri oxunub.

Tədbirin aparıcısı Hacı Bəkiroğlu tədbiri açıq elan edərək səfir Dursun Həsənova söz verib.

"Bu hadisə həqiqətən də Azərbaycan xalqı üçün böyük bir faciədir. 20 Yanvarın yaraları sağalmamış xalqımız bir də Xocalı soyqırımı ilə sarsıldı. Ancaq ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində atəşkəs elan olundu, Xocalıdan və Dağlıq Qarabağdan qaçqın düşmüş vətəndaşlar müxtəlif bölgələrə yerləşdirildi. Bu gün də prezident İlham Əliyevin güclü siyasəti nəticəsində bir çox ölkə Xocalı faciəsini soyqırım kimi tanıyıb.

Bu hadisənin beynəlxalq arenada düzgün və hüquqi nəticəsini almaq üçün də dünyanın bir çox yerində aksiyalar və tədbirlər təşkil olunur", - deyə D.Həsənov çıxışı zamanı vurğulayıb.

Sonra çıxış üçün söz GYMD-nin sədri Musa Hacıyevə verilib. M.Hacıyev bugünkü gəncliyə diqqət yönəldərək onların bu hadisələri daha yaxşı öyrənməsinin lazımlılığını vurğulayıb. O, bir neçə misalla gənclərimizin bir çoxunun Xocalı soyqırımı, 20 Yanvar kimi hadisələrdən məlumatsız olduğunu qeyd edib.

Daha sonra Garcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədr müavini Mayak Nemətov, Qardabani 3-nömrəli məktəbin müəllimi Firdovsi İsgəndərov, professor Mahmud Kamaloğlu və Nəzərli ictima məktəbinin müəllimi Sahib Mustafayev çıxış ediblər.

Tədbirin sonunda Xocalı soyqırımı ilə bağlı film nümayiş etdirilib.

# TBİLİSİDƏ XOCALI SOYQIRIMININ QURBANLARININ XATİRƏSİ ANILIB



Tbilisidə Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində Xocalı faciəsinin 28-ci ildönümünə həsr olunan anım tədbiri keçirilib.

Mərasimi muzey, Azərbaycanın Gürcüstandakı səfirliyi, Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi (GAİM) və "Azərkitab" Kitab Təbliğatı Mərkəzi birgə təşkil edib.

Anım tədbiri Xocalı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra pianoçu Rasim Pirməmmədov və kamançaçı Şəbnəm Hüseynlinin müşayiəti ilə faciəyə həsr olunan ədəbi-musiqili kompozisiya nümayiş etdirilib. GAİM tələbələri "Mən Xocalıyam" sözləri ilə faciə ilə bağlı faktları Azərbaycan və gürcü dillərində səsləndiriblər.

M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru Leyla Əliyeva çıxışında bildirib ki, Xocalı qətliamı yalnız azərbaycanlılara deyil, bütün bəşəriyyətə qarşı törədilib. O qeyd edib ki, Xocalı qurbanlarını yad etmək dünyanın istənilən yerində yaşayan hər bir azərbaycanlının mənəvi borcudur.

Sonra çıxış edən Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov qanlı faciəyə aparan yoldan danışıb: "Xocalı soyqırımı Azərbaycan xalqının tarixində ən ağır faciədir. Bu faciə dəhşətinə görə Holokost cinayəti ilə eyni tutula bilər".

Səfir gələcəkdə Gürcüstan parlamentində də Xocalı faciəsinin soyqırımı kimi tanınacağına ümidvar olduğunu qeyd edib.

Diplomat Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində əldə olunan nailiyyətlərdən də danışıb.

Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının nümayəndəsi Cəmilağa Ağayev çıxışında Xocalı faciəsini insanlığa qarşı aşkar törədilən cinayət adlandırıb. Onun sözlərinə görə, Xocalı hadisələrində Ermənistan silahlı birləşmələrinin qeyri-insani əməlləri barədə təkzibolunmaz faktlar mövcudur.

Komissiya nümayəndəsi qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi ağır humanitar problemlərə də gətirib çıxarıb.

Mərasim digər natiqlərin çıxışları ilə davam etdirilib.

Tədbirdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşəbbüsü ilə hazırlanmış Xocalı soyqırımına həsr olunan "Bitməyən əzab" filmi də nümayiş etdirilib.

Mərasimdə azərbaycanlı və gürcü gənclər, ziyalılar, Gürcüstan parlamentinin azərbaycanlı deputatları Azər Süleymanov, Mahir Dərziyev, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əməkdaşları və diplomtik korpusun nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində Xocalı mövzusunda fotoşəkillər və kitablar da sərgilənib.

*Mənbə: report.az*

# KORONAVİRUSU QƏLB VİRUSUNA ÇEVİRMƏYƏK



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Son bir neçə gündür ki, televiziyalar, qəzetlər, jurnallar və sosial media Çinin Uhan şəhərindən yayılmağa başlayan və ölkəmizə də qədəm basan koronavirusdan danışır. Bu xəstəlik haqqında hər cür məlumatlar yayılmağa başlayıb.

Bu olaylara bir də mənəvi yöndən nəzər salaq. Allah ilk insanlar olan Adəm peyğəmbəri və Həvva anamızı yaratdıqda onlara bəzi bitkilərə toxunmamalarını bildirdisə də onlar şeytanın vəsvəsəsiylə nəfslərinə uyub bu qadağanı pozdular. Bu hərəkətdən peşman olsalar da artıq onlar Cənnətdən çıxarılıb yer üzünə göndərilmişdilər. Bizlər də o insanların nəslindən gələnlərik. Onlara tətbiq olunan qadağalar və bəzi sərhədlər elə bu gün bizlərə də aiddir. Bu, istər yemək və içməkdə olsun ki, buna halallar və haramlar deyirik, istər hal və hərəkətlərimizdə olsun. Bu gün bu fəlakətlər məhz bu çərçivədən çıxdığımız üçün başımıza gəlir.

Adəm peyğəmbərdən bu yana Allah insanlara minlərlə peyğəmbər və milyonlarla təbliğçilər göndərərək insanları doğru yola çağırmışdır. Ancaq nəfsinə qul olmuş insanoğlu bu dəvətlərə qulağını tutmuşdur.

Bu gün insanlığın baş bəlası olmuş və hər il bir adla gündəmə gələn viruslar da məhz öz inadımızın nəticəsidir. Koronavirusun məskəni sayılan Çində halal-haram demədən nə gəldi yeyirlər və bunun da cəzasını bəşəriyyət ödəyir. Bəşəriyyətdə olan bir çox xəstəliklərin də məhz bu qadağan edilmiş maddələrin istifadəsi zamanı baş verdiyi danılmaz bir faktdır.

İnsanlıq əgər bu gün bu virusun gətirdiyi fəsadlardan və xəstəliklərdən qorxduğu və qorunduğu qədər Allahdan qorxsaydı və onun qanunlarına əməl etsəydi nə bir xəstəlik olardı, nə də bir qorxu. Çünki İslam dini zərərli maddələrin və heyvanların yeyilməsini qadağan etmişdir. Bu koronavirus xəstəliyi də yarasa və ya ilandan insana keçdiyi söylənilməkdədir ki, bunların hər ikisi də İslam dinində yeyilməsi qadağan olunmuş heyvanlardır.

İnsanın bu həyatda bir tək qarnını doydurması ilə iş bitmir. İnsanın əsas olaraq ruhunu doydurması lazımdır ki, yaşamaqdakı məqsədini və dünyaya gəlmə səbəbini dərk etsin. İnsan yeyib-içmək, gəzib-əylənmək və ölmək üçün dünyaya gəlmir. Allah Qurani-Kərimdə "Mən insanları və cinləri yalnız mənə itaət etsinlər deyə yaratdım" (Zariyət-51) buyurur.

Başqa bir nəzərlə bugünkü dünyamıza nəzər salsaq, bəlkə də bu xəstəliklər, bu təbii fəlakətlər insanın yolunu azmasının səbəbidir. Bunu hər birimiz açıq-aşkar görürük və inkar etməyimiz də mümkün deyil. Bu gün İraqda, Fələstində, Suriyada ölən insanlardan, Afrikada aclıqla mübarizə aparan kəslərdən biz məsuluq. Çox su içirlər deyə qətl edilən heyvanların səbəbkarı elə bizlərik. O zülmlərə göz yumduğumuz və səs çıxarmadığımız üçün bizlər də bu cür əzab çəkməyə məhkumuq. Çünki bu gün insanlıq nəfsinə məhkum olaraq yolunu azmış və əks istiqamətdə yol getməkdədir.

Qurani-Kərimdə də bildirildiyi kimi: "Hər canlı ölümü dadacaqdır" (Ənbiya, 21/35). Ölüb gedəcəyimiz bu dünyada özümüzlə qəbirə kəfəndən başqa bir şey də apara bilmirik. Odur ki, sabah Yaradanın qarşısına üzü ağ çıxa bilmək üçün əməllərimizə diqqət etməli, Onun qoyduğu qanunlara əməl etməliyik.

Nəticə olaraq onu vurğulamaq istəyirəm ki, bədənimizə təsir edən bu virusların ruhumuza işləməsinə və mənəviyyatımızı yeyib bitirməsinə imkan verməyək. Allaha yönələk ki, ruhumuzu da viruslar zəbt etməsin. Bir sözlə, koronavirusu qəlb virusuna çevirməyək.

## 2020-2021-Cİ TƏDRİS İLİ ÜÇÜN BİRİNCİ SİNİFLƏRİN QEYDİYYATI MARTIN 2-DƏN BAŞLAYIR



Birinci siniflərin qeydiyyat müddəti müəyyənləşib. Gürcüstanın Təhsil, Elm və Mədəniyyət Nazirliyi tərəfindən verilən məlumata əsasən:

**I mərhələdə (2020-ci ilin 2 mart tarixindən 16 mart tarixinə qədər)** xüsusi təhsilə ehtiyacı olan uşaqlar qeydiyyatdan keçəcəklər.

I mərhələdə qeydiyyatdan keçmiş uşaqların valideynləri ərizə ilə övladlarını qoymaq istədikləri məktəbə müraciət etməlidirlər. Məktəb rəhbərliyi isə öz növbəsində uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMİS) qeydiyyat etməlidir. Övladının xüsusi təhsilə ehtiyacı olduğunu təsdiqləmək məqsədi ilə valideyn məktəbdə nazirin sərəncamı ilə təsdiqlənmiş müraciət formasını doldurmalıdır. Qeyd olunan forma məktəbdən nazirliyə göndərilir və nəticədə valideynlə ünsiyyət və razılaşma əsasında 17 martdan 24 aprelə qədər multi-disiplin işləri üzrə komanda tərəfindən uşaq qiymətləndirilir və onun xüsusi təhsilə ehtiyacı olub-olmadığı müəyyənləşdirilir. Multi-disiplin işləri üzrə komanda qiymətləndirmənin nəticəsini valideynə və uşağın qeydiyyat olduğu məktəbə göndərir. Xüsusi təhsilə ehtiyacı olduğu təsdiqləndiyi halda məktəb müvafiq sənədlər əsasında şagirdin qəbul olunmasını təmin edir.

Xüsusi təhsilə ehtiyacı olan uşaqlar: fiziki məhdudiyyətli; intellektual inkişaf pozuntusu olanlar; tədris bacarığının pozulması; davranış və emosional pozuntusu olanlar; sensor inkişaf pozuntusu (eşitmə və ya görmə); nitq inkişafı pozulması; uzunmüddətli hospitalizasiya ehtiyacı olanlar; sosial faktorlardan tədrisdə yaranmış çətinliklər və buna görə milli təhsil planının tələblərinə uyğunlaşa bilməyənlər; autizm spektri olanlar.

Övladlarının xüsusi təhsilə ehtiyacı olmadığı təsdiqlənən valideynlər uşaqlarını II mərhələdə qeydiyyat etdirməli olacaqlar.

**Qeydiyyatın II mərhələsi 27 apreldən 8 may tarixinə qədər mümkün olacaq** və məktəbdə bu uşaqlar qeydiyyatdan keçə biləcəklər:

• Eyni məktəbdə təhsil alan bacı-qardaş;

• Valideyni məktəbin əməkdaşı olanlar.

• Ailədən eyni zamanda iki ya daha çox uşaq birinci sinfə qeydiyyat olarsa.

İndiki mərhələdə qeydiyyat ictimai məktəblərdə valideynin/qanuni nümayəndənin qəbul üçün təqdim etdiyi sənədlər əsasında həyata keçirilir. Qeydiyyatı ictimai məktəb təmin edir.

**III mərhələ – ümumi qeydiyyat – 13 maydan başlayacaq və 5 iyuna qədər davam edəcək.**

Qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində **(www.emis.ge)** həyata keçiriləcək. Qeydiyyatı valideyn/qanuni nümayəndə təmin edir. Elektron qeydiyyat olunan şagirdin qəbul olması üçün vacib sənədlərin təqdim edilməsi 8 iyundan 22 iyuna qədər həyata keçirilir. Müəyyən edilmiş vaxtda sənədlərin təqdim olunmaması halında qeydiyyat avtomatik ləğv olunacaq.

**IV mərhələ 24 iyundan 10 iyula qədər məktəblərdə həyata keçiriləcək.** Bu mərhələdə azad olunan vakant yerlərə, yaxud qalan boş yerlərə; I, II və III mərhələlərdə qeydiyyatdan keçə bilməyən və ya məktəbi dəyişmək istəyənlər qeydiyyatdan keçəcəklər.

Şagirdin dördüncü mərhələdə qeydiyyatını ictimai məktəb valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənədlər əsasında təmin edir.

**Gürcüstanın ümumtəhsil müəssisələrində şagirdin birinci sinfə qəbul olunması üçün lazım olan sənədlər:**

• Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi qeyd olunmalıdır.

• Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin surəti və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal olarsa).

Nazirlik valideynləri qeydiyyat müddəti və şərtləri ilə diqqətlə tanış olmağa çağırıb ki, uşağı məktəbə vaxtında və maneəsiz qeydiyyat edə bilsinlər.

2020-2021-ci tədris ili üçün 15 sentyabra qədər 6 yaşı tamam olan uşaqlar qeydiyyatdan keçə biləcəklər.

## MƏKTƏBLƏRDƏ TƏTİL MARTIN 2-Sİ BAŞLAYACAQ



Koronavirusla bağlı bütün məktəblərdə dezinfeksiya aparılması üçün yetərli vaxt qalsın deyə məktəblərdə yaz tətili 9 mart əvəzinə 2 mart tarixində başlayacaq və 16 marta qədər davam edəcək. Bu haqda hökumət administrasiyasının yayımladığı məlumatda qeyd olunub.

Gürcüstanın baş nazirinin rəhbərliyi ilə koronavirusla bağlı yaradılmış Müəssisələrarası Koordinasiya Şurasının fevralın 29-da növbəti iclası keçirilib.

Hökumət administrasiyasının məlumatına görə, profilaktika məqsədi ilə məktəblərdə Səhiyyə Nazirliyi tərəfindən tövsiyə edilmiş əlavə dezinfeksiya işlərinin aparılması ilə bağlı iclasda qərar qəbul edilib.

Bundan əlavə, Müəssisələrarası Koordinasiya Şurasının iclasında qəbul edilmiş qərara görə, dezinfeksiya işləri ictimai nəqliyyatda və uşaq bağçalarında daha da gücləndiriləcək.

Müvafiq xidmətlər, həmçinin Tbilisi meriyasının nəzdində olan alt müəssisələrə də artıq tapşırıqlar verilib. Səhiyyə Nazirliyi və müvafiq xidmətlər fəal çalışmağa davam edəcəklər.

Səhiyyə naziri Müəssisələrarası Koordinasiya Şurasına infeksiyaya yoluxanlar haqqında məlumat da verib və qeyd edib ki, indiki mərhələdə (fevralın 29-u - RED.) karantində 170 nəfər var.

Müəssisələrarası Koordinasiya Şurası karantinə alınan şəxslərə yüksək ictimai məsuliyyət göstərdiklərinə və Səhiyyə Nazirliyinin tövsiyələrini nəzərə aldıqlarına görə minnətdarlıq bildirib. Şura iclasda bir daha qeyd edib ki, təşvişə əsas yoxdur, Gürcüstan hökuməti Dünya Səhiyyə Təşkilatı ilə fəal əməkdaşlıq edir və proses tam idarə olunur.

Müəssisələrarası Koordinasiya Şurasının iclasında Parlamentin Sağlamlığın Müdafiəsi və Sosial Məsələlər Komitəsinin sədri Dimitri Xundadze və Tbilisi merinin müavini Sopo Xundzaria iştirak ediblər.

## TƏHSİL NAZİRLİYİ İNKLÜZİV TƏHSİL ŞURASI YARADIR



Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi sahə ekspertlərindən ibarət 12 qrup yaradır. Bu haqda nazir müavini Eka Dqebuadze jurnalistlərə bildirib. O deyib ki, qrupun məqsədi təhsilin sistemli inkişaf baxışının çərçivə sənədinin yaradılması olacaq.

E.Dqebuadzenin sözlərinə görə, sənədin formalaşması nazirliyin 165 məktəbdə "Yeni məktəb modeli"nin həyata keçirilməsi nəticəsində topladığı təcrübə əsasında əhəmiyyətlidir.

"Yüksək qoşulma məqsədi ilə şura yaradırıq, bu, inklüziv təhsil şurasıdır, ancaq yalnız inklüziv istiqaməti əhatə etmir. Şuraya islahat üzərində çalışan ekspertlər daxil olacaq.

Şurada daxili mövzuya uyğun qrupların olması əhəmiyyətlidir. Onlar qeyri-formal təhsil, məktəbəqədər təhsil, azlıqlar və s. mövzularda çalışacaqlar. Müxtəlif qruplar olacaq və həmin qruplar öz maraqlarından dolayı bizimlə birgə çalışmaq istəyi olan qrupda birləşəcəklər. Bu, məhz Təhsil Nazirliyinin inkişaf etdirdiyi prosesdir", - deyə Eka Dqebuadze bildirib.

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## AŞIQLAR BAYRAM GÜNLƏRİNDƏ



*Qədim Tiflisin aşıqlarından biri Haziranın dəstəsi*

Bohema yalnız Tiflisdə ola bilər.

Gürcüstanın hüdudları daxilində Tiflis bohemaya müvafiq sahənin ayrıldığı yeganə şəhərdir.

Hər bir dövrün öz poeziyası vardır, amma bu poeziya həmişə ədəbiyyatla yayılmır. Tiflis aşıqları və sazandarlar mahnılarla və şifahi nitqlə öz poeziyalarını yayırdılar.

Şatobrian (fransız yazıçısı Fransua Rene de Şatobrian – M.M.) söyləyir:

"Hələ mahnı oxuyurlar, sonra yazırlar".

Bizim aşıqlar isə bir-ikisini çıxmaqla heç bir zaman yazmırdılar. Onlar özlərinin şüur valında şifahi olaraq bütün əsrin zehni xəzinəsini daşıyırdılar və bu tükənməz material mahnı şəklində bizə qədər gəlib çatırdı. Köhnə vaxtlar Tiflisin küçələrində ovsunlanmış gəlib keçənlərin nəfəsini qısmış halda dinlədiyi mahnı eşidilirdi. "Açıq havada təşkil olunmuş konsertlər yerli əhalinin musiqi istedadını aşkarlayırdı. Bu konsertlər adi olaraq gündəlik zəhmətdən yorulub evə qayıdan dükançılar, sənətkarlar və başqa əmək adamları tərəfindən keçirilirdi" ("Kavkaz", 1894-cü il, №52).

Mahnı şifahi ədəbiyyatın yayılmasında ən güclü vasitədir. Mahnı təkcə insana deyil, zəhərli ilanlara da təsir göstərir. Musiqini eşidəndə bu ilanlar bəzən rəqs edirlər və sakitləşirlər. Budur, Şota da deyir: "Şirin dillə ilanı da yuvasından çıxarmaq olar". Kəndi, istərsə də qəsəbəşəhərləri dolaşan, el şənliklərində, qəhvəxanalarda mahnının vasitəsi ilə xalq poeziyasının nümunələrini yayan "şirin dillilər" bizim aşıqlar idilər.

Akademik N.Marr yazır: "Gürcü ədəbiyyatının populyarlaşmasına kilsə bayramları güclü yardım göstərirdi... Gürcüstanın bütün guşələrindən ən yaxşı müğənnilər və xalq nəğməkarları (zurnaçı, sazandar) bu bayrama toplaşırdılar. Bu müğənnilərin vasitəsi ilə gürcü ədəbiyyatının, az, istərsə də çox, görkəmli və arzuolunan nümunələri xalq arasına çıxırdı".

Tiflis yaxınlığında ikonaları ilə Tiflisdən çoxlu camaatı özünə cəlb edən xeyli kilsə vardır - Bolnisoba, Barbaroba, Şavnabatoba, Teletoba, Ğvtaeoba, Elioba, Tsinanauroba və sair.

Tiflisin qaracoxelilərini (qaracuxalıları) klerikalizmə aludəçiliklə hər halda günahlandıra bilmərik. Köhnə vaxtlarda şəhərətrafında yalnız iki əyləncə yeri mövcud idi: sadə camaat üçün Ortacala bağları və Avropa tərbiyəsini almışlar üçün Müştəhid bağı. Buna görə bu bayram günləri də qaraçoxelilər üçün sağlam təbiət qoynunda bir yerə yığılmış duyğuya tamamilə sərbəstlik verdiyi və bütün üç gün ərzində ürəkdən sərxoşluq etdikləri əyləncəli yer idi.

Onlar kef çəkdikləri barədə olduğu qədər kilsə duaları barəsində düşünmürdülər.

"Qadın əgər xəstə olarsa,<br>
Aparacaqlar yüyürtmə.<br>
Hər halda bir dəfə atılıb-düşərsə,<br>
Nə istəyirsən, ola bilməz ki, ona xeyri dəyməyə".

Əgər bu günlərdə qadın üçün atılıb-düşmək, illah da xəstə qadın üçün bir növ müalicəvi idisə, aydındır ki, tiflisli qaraçoxelilər necə bir eşqlə bu kilsə bayram günlərini qarşılayırdılar.

Ailənin ixtiyar üzvləri və ailə, arvad-uşaq kilim sərilmiş arabalarla, imkanlı qaraçoxelilər isə irəlicədən kirayələnmiş faytonla yola çıxırdılar.

Getməmişdən öncə əvvəlcə bir çərək şərabdan vurur, sonra qəlyanı ağızlarına alır və beləcə yaxşıca həvəsə gəlmiş halda xoşhallanar və zümzümə edərək əhd olunan ibadətxanaya gedirdilər.

"Mənim qəlbim məhz elə isti təndirdir,<br>
Dostluq etməyi mən də bilirəm".

Şübhəsiz, üç atın qoşulmalı olduğu faytonlar fövqəladə şəkildə yaşıl budaqlarla bəzədilirdi. Atların boğazlarından zınqırovlar asılırdı, yalmanlarından isə Bağdad yaylığı dəstə-dəstə bağlanırdı.



*Niko Pirosmani "Qaraçoxelilərin kef məclisi"*

Bəziləri öz atları ilə yola çıxırdılar, bəziləri isə ələlxüsus, "niyyət edən"qadınlar ayaqyalın da gedirdilər.

Havaların əlverişsiz keçməsi heç kimə mane olmurdu.

Bu kilsələrin barısında bəzi dükançı, xüsusilə, belə "xoşbəxt gün üçün" daimi mənzillər də inşa etmişdi.

Bildiyimiz kimi, bu əhli-keflər Allahdan qorxan deyildilər. Onların başları müxtəlif sufi cır-cındırlarından azad idi, amma onlar dədə-baba adətlərinə əməl edirdilər və bu kilsə bayramında yalnız və yalnız Allah yolunda qurban kəsməyə inanırdılar.

Bir tiflisli şair – Xəyal Qazaxlı öz hislərini ifadə etmək üçün bu cür müqayisəyə müraciət edir:

"Mənə səni qucaqlamaq çətin oldu,<br>
Eşqinlə məni alçaltdın, mənim qatilim oldun,<br>
İbadətgahsan, qüdrətli ikonasan,<br>
Mən sənin qapına qurban kimi gəldim."

Aşıqlar bu cür şənliklərdə lazımi olan keyfi təşkil edirdilər.

***Gürcü dilindən tərcümə: Mirzə MƏMMƏDOĞLU***

## QAL, SƏNƏ QURBAN, BƏLKƏ NƏSƏ OLUR



Məşhur mahnı nə qədər sevgidən bəhs etsə də orda bizim mentalitet, yaşam tərzimiz də özünə yer edib. Bir neçə zamandır beynimdə düyünlənən sualı açmaq üçün mahnı kömək etdi, ona görə mahnıyla başladım. Çoxumuzun əzbərə bildiyimiz mahnının nəqarətində birinin digərinə (aşiqin məşuqə və yaxud məşuqun aşiqə) "getmə, kimsəsizəm, qal, sənə qurban" deməsi mənə heç xoş gəlmədi və düşünülməmiş ifadədir, bəlkə də peşəkarcasına düşünülmüş. Deyir ki, kimsəsizəm, getmə. Sırf kimsəsiz olduğu üçün qarşı tərəfdən getməməsini istəyir. Yəni kimsə olsaydı, yəqin, gedirsənsə, yaxşı yol olsun, dərin get deyərdi. Sizcə də burdakı müraciətdə sevgi əskik deyil? Deyirsən getmə, lap yaxşı, qal deyirsən, buna da söz yox, ancaq kimsəsizəm və sənə qurban demək öz mənafeyini düşünməkdən başqa heç nə deyil. İndi adam bilmir getsin ya qalsın. Əslində belə deyən adamların yanında qalmaq qətiyyən olmaz, getmək də əclaflıq olardı, çünki getmə deyə bilir. Getmə deyir, amma adamı yola da aparmır.

Bu günlərdə beynimin içində avtonomiya qurmuş sual "niyə birləşə bilmirik?" sualı idi. Bu sual çoxumuzda var. Mən bu suala cavab tapdım, amma o cavab da bir sualdan ibarət idi. Məncə, birləşə, bir ola bilirik, ancaq bir qala bilmirik. Bizim məsələ olmaqda deyil, qalmaqdadır. Ola bilirik, qala bilmirik. İndi isə, niyə bir qala bilmirik, deyə düşünürəm. Qala bilmirik, ona görə ki, kiminsə başı ona kimisinin başından daha cazibədar gəlir, bəziləri səs tonunu bəyənmir, bəziləri geyindiyi rəngi, bəziləri kəndini, hətta, bəziləri pedantlıq edərək digərlərinin yerişini də bəyənmirlər. Məsələn, etiraf edim ki, mən şəxsən qrammatik olaraq səhv yazan şəxs görəndə vicdan əzabı çəkirəm. Ona görə vicdan əzabı çəkirəm ki, biz daha sadə formada qalmağın yollarını tapmalıydıq, daha hansısa sözdə neçə ə, neçə y, neçə s olduğunda ilişməməli idik. Gəlin, birlikdə bu əzabdan qurtulağın.

Gəlin deyirəm, gələcəksiniz, amma qalan deyilsiniz. Çünki birliyə öyrəşməmisiniz. Çünki birlik olan yerdə qalmamısınız. Daha sonra mən sizə (sənə) məşhur mahnıdakı kimi getmə, kimsəsizəm, qal sənə qurban desəm, deyəcəksiniz ki, bu yüz faiz bizdən istifadə edəcək, əclafın hansısa məqsədi var. Bakı şəhərinin keçmiş icra başçısı Hacıbala Abutalıbovun təbirincə desəm, inanın, mənim başqa məqsədim yoxdur, mənim məqsədim birlikdir. Qalın, bəlkə nəsə olur…

***Elməddin MƏMMƏDLİ***

*"Gündəlik – Gürcüstan" feysbuk səhifəsinin idarəçisi, Media İnkişaf Fondunun laboratoriyasının regional şəbəkəsinin üzvü.*



## HEPATİT B – ÇAĞIMIZIN ƏN AKTUAL YOLUXUCU XƏSTƏLİKLƏRİNDƏN BİRİ

İsə Xəmmədov
khamedovisa0@gmail.com

Hepatit B qaraciyərdə iltihablaşmaya səbəb olan və eyniadlı virusun yaratdığı viral xəstəlikdir. Hepatit B virusu cinsi yolla və qan yolu ilə keçən və uzun müddət heç bir əlamət göstərməyən xəstəliklərdəndir. Lakin virus orqanizmə daxil olduqdan sonra insanın immun sistemi qüvvətli olarsa həmin xəstəliyə yoluxmama ehtimalı da ola bilər.

Qaraciyərdə xəstəliklər yaradan çoxlu sayda viruslar vardır, bunlardan biri də Hepatit B virusudur. Hepatit B qanla dolaşan virusdur və qaraciyərə təsir göstərir. Dünyada 400 milyondan çox insan bu virusu daşımaqdadır. Belə pasiyentlər müalicə almadıqda serroz və ya qaraciyər xərçəngi ilə üz-üzə qala bilirlər.

Hepatit B müəyyən profilaktik tədbirlər görülməklə qarşısı alına bilinəcək xəstəlikdir. Burada isə ən önəmli nüans vaksindir.

Bəs Hepatit B-yə necə yoluxulur?

Xəstəlik qan və cinsi yolla keçə bildiyi üçün qanköçürmə zamanı, qorunmasız cinsi əlaqə zamanı, damardaxili dərmanlardan istifadə edənlərin eyni iynəni istifadə etməsi zamanı və anadan körpəyə doğuş zamanı bu xəstəlik keçə bilər. Qan və cinsi yolla yoluxma faizi adətən dializə gedən insanlarda, qan xəstəliyinə görə tez-tez qan materiyalları istifadə edənlərdə, lazımi steril şəraitin yaradılmadığı stomatologiya, cərrahi və tatu (döymə) mərkəzlərində, çoxsaylı cinsi partnyoru olan və qorunmadan münasibət yaşayan insanlarda daha yüksəkdir. Bununla belə, ortaq ülgüc və diş fırçası kimi əşyalar yoluxmada rol oynaya bilirlər.

Hepatit B qaraciyərdə zədələnmələr yaradır və əlamətləri çox gec zamanda biruzə verir. Bəzən xəstələrə birbaşa qaraciyər serrozu və ya qaraciyər xərçəngi diaqnozu qoyulur.

Hepatit B-nin əlamətləri:

- Halsızlıq
- Yorğunluq və gücsüzlük
- İştahsızlıq
- Dəridə və gözdə saralma
- Çəki itkisi
- Qaraciyər nahiyyəsində ağrı
- Qaşınma
- Ovucda qırmızı ləkələr
- Tünd rəngli sidik ifrazı və açıq nəcis
- Qarında şişkinlik
- Ayaqlarda şişkinlik
- Ürəkbulanma
- Qanlı qusma
- Qanaxmaların çətin saxlanılması

Ortalama olaraq virusun əlamətləri 90 gün ərzində özünü biruzə verir. Hepatit B-nin diaqnozu labarotoriya analizi zamanı təsdiq olunur. Əgər analiz 6 aydan sonra da müsbətdirsə bu, artıq xroniki hepatitə keçmənin əlamətidir. Hepatoloqa müraciət, düzgün müalicə və kontrol altında olmaq həm sizin, həm ailə üzvlərinizin, həm də cəmiyyətin sağlamlığı üçün önəmlidir. Sizi simptomlar narahat etməsə belə ətrafdakı insanları yoluxdura bilərsiniz. Belə insanlarla bir ailədə yaşayanların peyvənd olunması vacibdir. Hepatit B-nin müalicəsi mümkündür. Zamanında müalicə olunmadıqda artıq müalicəsi çətin və bəzən də mümkünsüz olan qaraciyər serrozu və qaraciyər xərçəngi ilə qarşılaşırıq.

# KİMDİR TƏRBİYƏSİZ?




Yazıya sualla başlamaq istəyirəm. Bizim cəmiyyətin tərbiyəli dövrü nə vaxt olub, ümumiyyətlə, tərbiyəli cəmiyyət deyəndə nə demək istəyirsiniz?

Sovetlər Birliyi dağıldıqdan sonra cəmiyyətlərin və fərdlərin bir növ şəxsi azadlıqları başladı və eyni zamanda uzun müddət hazır və proqramlaşdırılmış həyat yaşayan adamlar sonra bütün məsuliyyətləri öz üzərinə götürdü. Bu, təbii ki, çox çətin proses idi. Bir çox sahələrdə çökmə baş verdi. Ən böyük itkini isə təhsil, tədris sahələri verdi.

Nəsillər dəyişdi. Sovet düşüncəli tamamilə fərqli insanlar müasir zamana doğru irəliləməyə başladı və onlar gənc müasir nəslin nümayəndələri ilə qarşılaşdı. Nəsillərin toqquşması baş verdi. Təbii ki, hər bir fəlakət arxada qurbanlar buraxır. Nəsillər bir-biri ilə fərqli mühitdə və sosial çərçivədə toqquşduqda da hər iki nəsildə böyük təsir buraxdı.

Sovetlər Birliyi insanları azad qərar vermə fikrindən məhrum etmişdi, alternativlər yox idi. Eyni ilə həmin nəsillər onu başqa nəslin öz mühitində həyata keçirməyə başladı. Bu onlar üçün bir çox hallarda asan başa gələcək *tabe ol* standartı yaratdı. Müasir nəsil maddi baxımdan azad deyildi və onlar azad mühitdə özlərini tarazlaya bilmədilər, onlar da hələ keçmişin təsirindən tamamilə uzaqlaşa bilmədiklərindən, beyinlərində çoxlu cavabsız suallar və praktikada isə həyata keçirə bilmədikləri gələcəkləri xəyal kimi gələcəkdən keçmişə qovuşdu.

Azad olmaq istəyən gənc nəsil özünü əsarətdən xilas etməyə cəhd edərkən, o, ilk öncə hələ də cəmiyyətin böyük hissəsini təşkil edən qapalı, asılı yaşayan böyük kütlə ilə vuruşmalı olur, hər dəfə bu keçid onda öz təsirini qoymağa başlayır, ən çox psixiloloji olaraq sarsılır və sonrakı mərhələlərdə isə o, maddi baxımdan tükənir və özünü realizə edə bilməyərək sonunda bütünlüklə özünü qarşı nəslin içində, tabeliyində və əsarətində görür.

Bizim insanlar fərdə öz gələcək həyatı haqqında seçim vermək istəmir və bu seçimi onların özü etmək naminə fərdə psixoloji təcavüz edir. Təbii ki, bu proseslərin sonu faciə ilə nəticələnir.

Bəs biz gələcək nəsillərə necə tərbiyə vermişdik ki, bu gün onlar tərbiyəsizləşdilər?

Qorxu, təhdid və manipulyasiya.

Yaş və güc baxımından böyük olduqları üçün ucalan səs qorxudur. Bunun qarşılığı yoxdur, bu qayda-qanunu əsrlər əvvəl təhsilsiz və təbii proses zamanı saç-saqqalı ağarmış şəxslər qoyub. Hər şey üçün bir cavab – OLMAZ!

Gələcək nəsil özündən əvvəlki nəslin davamçısı olduğu üçün o, hələ də hərtərəfli ona bağlıdı və çox asılıdır. Təhdidlər edilərək onun bütün arzuları içində öz varlığı ilə məhv edilir.

Sonuncu isə ən ağır olanıdır – manipulyasiya. "Mən səni dünyaya gətirmişəm", "mən səni böyütmüşəm" ifadələri fərdin bütün imkanlarını məhdudlaşdıraraq onu psixoloji uzun müddətli sarsıntı və məsuliyyət altına alır. O, bunu qəbul etdisə heç vaxt tərk də edə bilməyəcəkdir.

Öz həyatını, gələcəyini öz ağlı və düşüncəsi ilə quran gənclik isə hirslərin qurbanı edilir, onlar cəmiyyətin tərbiyəsiz uşaqlarına çevrilir. Cəmiyyət öz qopan parçasını sonuna qədər əzməyə cəhd edir. Bu cəmiyyətdə nə qədər mən azadam, müstəqiləm desək də, cəmiyyət bizdən hər dəfə buna görə qisasını alır. Bütün hallarda isə öz övladına acımır.

Son illərdə, bizlər bunun çox pis nəticələri ilə qarşılaşırıq. Təhdid, qorxu, manipulyasiya edilərək qurulan ailələr dağılır. Qadınlar ailəni tərk edib bu cəmiyyətin onu bağışlamayacağını görüb, baş götürüb gedirlər, tabe olmayan öldürülür, döyülür və az yaşlı uşaqlar yetim qalaraq ağır travmalara məruz qalırlar. Hesab edirlər ki, bir qadın hökmən bir kişinin qulудur, onun tələbi və etirazı olmamlıdır, o insan deyil, sevə bilməz, qərar verə bilməz, hiss edə bilməz, bütün hallarda o günahkardır, çünki qadındır. Amma bir kimsə soruşmur, düşünmür ki, niyə bu hadisə baş verdi, kimsə hər iki cütlükdən başqa ayrı günahkar axtarmır. Bir valideyn belə öz övladının gələcəyinə özü qərar verdiyi üçün bundan utanmır, xəcalət çəkmir. Onun son faciəsinə isə heç bir şəkildə şərik olmur. Niyə cütlüklər bir-birinə xəyanət edirlər? Sizlər, sizlər ey qərar verən böyüklər, sizə bir elmi açıqlama verim. Şəxs 18 yaşa kimi azyaşlı hedab edilir, yəni uşaq. Biz hər birimiz bilirik ki, uşaq tam qərar vermə həddinə gəlməyən fərddir. Uşaq yaşlarında onu özü ilə bağlı gələcək qərar almaq məcburiyyətinə qoymaq cinayətdir, günahdır. Öz uşağını erkən yaşda evləndirən hər bir valideyn dini, dövləti və vicdanı qarşısında günahkar, qanun qarşısında isə cinayətkardır. Uşaqda 18 yaşa qədər fizioloji formalaşma getdiyinə görə o, bu yaşda evləndirilə bilməz, bu proses tamamlanmalıdır. 18 yaşdan sonra onda düşüncə formalaşır, psixoloji formalaşma gedir və artıq 20 yaşdan sonra doğru qərar almaq yaşına çatır. 23 yaşlı və 3 uşaq anası olan, 14 yaşında evləndirilən bir qız ancaq bu yaşda öz ağlı formalaşdığına görə indi qərar vermək haqqına sahiblənir. Onun üçün artıq gec olur və məcbur edilən həyatı yaşamaq istəmir, insandır, onun tələbləri və hisləri var, hansı ki, bunlar təbii proses kimi fərdə tabe deyil. Bu zaman o, cəmiyyətin nifrət obyektinə çevrilərək tərbiyəsizlik damğası ilə daşlanır və sonra öldürülür. İnsanlar inkişaf edən dünyanı yalnız televiziyadan izləyə bilir və ona doğru da gedir, ancaq, çox təəssüf ki, o, gərək bunun üçün çox uzaqlara getsin, harada ki, insanlar insan yerinə qoyulur və kimsə kiminsə gələcəyini əlindən almır. İndi deyin, sizlər, böyük nəsillər, sizmi daha çox tərbiyəsizlik edirsiniz, yoxsa indiki nəslimi? Sizmi daha çox günahkarsınız, yoxsa bizmi? Bu dünyada bir fərdin həyatını məhv etmək qədər böyük günah, cinayət və tərbiyəsizlik yoxdur!

***Samirə BAYRAMOVA***
İctimai fəal, hüquq müdafiəçisi

# GÜNÜMÜZDƏ AİLƏ DƏYƏRLƏRİ

Fərd olaraq bu həyatda var ola bilmək üçün istiqamətimizi düzgün seçməliyik. Başqası olmaqdan əl çəkib şəxs olmağı bacarmalıyıq. Kimin nə etdiyi ilə, necə yaşadığı ilə maraqlanmaq əvəzinə öz həyatımızla maraqlanmalıyıq.

Müəyyən bir yaşdan sonra həyata dair istiqaməti özümüz bəlirləyirik, bu, istər təhsildə, istər ailə qurmaqda, istərsə də iş seçimində olsun.

Təhsil üçün özümüzə yön seçdiyimiz zaman başqalarının bu yöndən istifadə edib-etmədiklərinə deyil, bizim bu yolu gedə biləcəyimizə baxmalıyıq. Çünki hər kəs eyni qabiliyyətdə deyil. Başqalarının getdiyi yolla getmək bacarığımız olmaya bilər və ya bizim getdiyimiz yolla başqalarının getmək bacarığı olmaya bilər. Hər kəs qabiliyyət baxımından fərqlidir. Oxumaq, təhsil almaq gözəldir. Elm öyrənməyin tərəfdarıyam, ancaq elm öyrənməyin altında dəb yatmamış olsun. Elm öyrənərkən ailələrimizi maksimum səviyyədə maddi sıxıntılara sürükləməməliyik, axı, biz elm öyrənmək üçün çıxmışıq bu yola, ailələrimizi iflasa uğratmaq üçün deyil.

Təhsilini bitirmiş birisi artıq, demək olar ki, həyatda müəyyən məsafə qət etmişdir.

Hər bir gənc həyatın qanunu olaraq ailə qurmaq üçün bir namizəddir. Ailə qurarkən də diqqət edilməsi lazım olan nöqtələr vardır.

Ailə quracağınız şəxsin sadəcə xarici görünüşü xoşbəxt ailə üçün kifayət deyildir. Xoşbəxt və daha keyfiyyətli həyat istəyiriksə ailə quracağımız şəxsi hərtərəfli araşdırmalı və onun həyatda nələrə diqqət etdiyini, nələrə dəyər verdiyini, qurduğu ailədən nələr gözlədiyini bilməliyik.

Ailə qorunulması gərək olan bir müəssisədir, məhrəmiyyət tələb edir. Ailənin içində olanlar ailə fərdlərindən başqalarına açıqlanmamalıdır (əgər ortada ciddi bir vəziyyət yoxdursa). Axı ailə iki yetişkən insanın həyatını birləşdirib bərabər olmasıdır, üçüncü şəxslərin daxil olması hər şeyi korlaya bilər.

Sevmək, sevilmək, ailə qurmaq iki, üç günlük deyil, bir ömürlük olmalıdır. Ona görə də, dəfələrlə düşünülməli və elə qərar verilməlidir.

Ailə iki yetişkən insanın həyatını birləşdirməsi və bunun nəticəsində də övladlarla bəzənən bir dünya deməkdir. Həyatda maddi-mənəvi çətinliklər olacaqdır, bu çətinliklər xoşgörüş, səbr və əzmlə daha sağlam bir ailənin təməlini qoyacaqdır.

Həyat iki üzlü bir jetona bənzəyir, nə zaman hansı üzünü göstərəcəyi bəlli olmaz. Ən yaxşısı bizim hər ikisinə də hazır olmağımızdır.

İllərə dayanan mehriban, qayğıkeş, sevgi dolu bir ailəmiz olsun istəyiriksə seçimlərimizi düzgün etməliyik. Tələsməməliyik və təmkinli olmalıyıq.

Ailə həyatı filmlərdə gördüyümüz kimi güllük, gülüstanlıq deyil, ailənin də özünə görə məsuliyyətləri vardır.

Ailə böyüklərinin hər ikisi də məsuliyyətini dərk etməli və ona görə davranmalıdırlar. Qadın qadınlığını, kişi də kişiliyini bilməlidir. Bu gün qadınla kişi arasında heç bir fərq yoxdur deyilir, ancaq gəl gör ki, fiziki baxımdan cinsiyyətlər arasında fərq çoxdur. Kişilər problem yönümlü yaradılmış, qadınlar isə onlara nisbətən daha zərif və daha incə düşüncəlidirlər. Hər kəs yerini bildiyi və həddi aşmadığı müddətdə səadətə bürünmüş bir ailə meydana gələr.

Lamiyə Hacıyeva
Bütün Gürcüstan Müsəlmanları İdarəsinin
Qadınlar Şöbəsinin sədri

# SİNİF RƏHBƏRİNİN ƏLAVƏSİ NEÇƏ LARİDİR VƏ ONLARIN HANSI ÖHDƏLİKLƏRİ VAR?

Məktəbdə şagirdin məsləhətçisi olaraq sinif rəhbəri nəzərdə tutulur. Şagirdin düşüncə və fiziki inkişafının qayğısına qalmaq məhz onun öhdəliyidir.

Milli tədris planına əsasən, sinif rəhbəri "şagirdlər arasında sağlam həyat tərzinin tətbiq olunmasına dəstək olmalı, liberal və demokratik dəyərlərə söykənən mülki maarifləndirməni inkişaf etdirməli və onların ailə, ictimaiyyət və dövlət qarşısında öz hüquq-öhdəliklərini dərk etməsinə yardım etməlidir". Bunun üçün sinif rəhbərinin aylıq əlavəsi 101,25 laridir, ələ isə 81 lari alırlar.

"Etaloni.ge" sinif rəhbərinin öhdəliyinə nələrin daxil olduğunu və onun iş prinsipinin milli tədris planına əsasən necə müəyyən olunduğunu olduğu kimi təqdim edir:

Sinif rəhbərinin öhdəlikləri:

Hər sinfin öz rəhbəri olmalıdır.

Sinif rəhbərinin öhdəlikləri bunlardır:

- Ayda ən azı 4 dəfə sinif təşkilat saatının keçirilməsi;
- Akademik və ya başqa problemləri həll etməkdə şagirdə kömək etmək;
- Problem yarandığı halda şagird, valideyn və müəllim arasında vasitəçilik etmək;
- Ayda ən azı bir dəfə valideynə övladının davranışı və akademik iştirakı haqqında məlumat vermək. Öz sinif şagirdlərinin dərsdə iştirakını gündəlik yoxlamaq;
- Tədris ilinin başlanğıcında şagird və onun valideyninə şagirdin dərslərdən qalma halında gözlənilən nəticələr haqqında məlumat vermək.
- Sinif rəhbəri olduğu sinfin şagirdlərindən hansınınsa başqa məktəbə keçdiyi halda onu qəbul edən məktəbə şagirdin akademik və dərslərdəki iştirakı haqqında məlumat verilməsini təmin etmək;
- Bu planla nəzərdə tutulmuş başqa öhdəliklərin yerinə yetirilməsi.

Sinif rəhbəri övladının akademik iştirakı və davranış məsələləri haqqında fərdi görüşlər zamanı valideynə məlumat verməlidir. Bir şagirdin davranışı və akademik iştirakı haqqında başqasının yanında danışmaq yolverilməzdir.

Əgər şagird dərsdən qalırsa sinif rəhbəri bunun səbəbini öyrənməlidir.

Sinif rəhbəri davamlı şəkildə fənn müəllimindən sinif şagirdlərinin akademik iştirakı, şəxsi problemləri və ümumi uğurları haqqında soruşmalıdır. Tədris ili başa çatan zaman o, hər bir şagirdin akademik iştirakı, dərsdə iştirakı və davranışı haqqında təhlil aparmalıdır və bunun əsasında hər bir şagird haqqında qısa xasiyyətnamə yazmalıdır.

Xasiyyətnamədə təsvir olunmalıdır:

a) Şagirdin güclü tərəfləri, onun akademik və sosial münasibətlər baxımından, şagird dairələrində, idman yarışlarında və başqa tədbirlərdə uğurları;

b) Şagird üçün yararlı olacaq akademik, fiziki, emosional və sosial inkişafı üçün vacib məsələlər.

Əgər şagirdin orta illik qiyməti 5,1-dən aşağıdırsa, sinif rəhbəri valideynə və şagirdə xəbərdarlıq etməlidir ki, növbəti tədris illərində mütləq üzərində işləsin ki, (bu, pillənin sonuncu sinfi deyilsə) şagird pilləni aşa bilsin.

Sinif rəhbəri maraqlanan valideynlə görüşməli və övladının akademik iştirakı və davranışı, dərsdən qalması haqqında məlumat verməlidir.

Sinif rəhbərinin iş prinsipləri:

Sinif rəhbərinin tədris çalışmaları sonrakı prinsiplərə əsaslanmalıdır:

- Tədrisin bütövlüyü – tədris çalışmaları şəxsin fiziki, psixoloji, sosial və mənəvi inkişafına istiqamətlənməlidir. Tədrisin əsas prinsipi fiziki və psixoloji baxımdan sağlam vətəndaş yetişdirməkdir.
- Yaradıcı, fəal şəxslərin yetişdirilməsi – bütün uşaqlar unikaldır. Onlar müxtəlif bacarıqlar və imkanlarla mükafatlandırılıblar. Sinif rəhbərinin funksiyası şagirdin daxili gücünün fəallaşdırılması və onların bacarıq və imkanlarının aşkarlanması üçün müvafiq şərait yaratmaqdır.
- Şagirdlərin qoşulması – bu prinsip şagirdlərdə məsuliyyət və öhdəlik hissinin inkişafına dəstək olur. Sinif rəhbəri şagirdlərin qoşulmasına dəstək olmaq üçün onların fəallıqların (şənliklər, düşərgələr, ekskursiyalar və s.) planlaşdırılmasında və bu zaman yaranan problemlərin həllində iştirak etməsinə imkan yaratmalıdır. Sinif rəhbəri maksimum dərəcədə şagirdlərin marağını nəzərə almalıdır. Bu kimi qoşulmalar şagirdlərdə yardım etmək, həyatda qarşılaşdıqları çətinlikləri həll etmək bacarığını inkişaf etdirəcək və azad şəxs olaraq formalaşmaqda onlara kömək edəcək.
- Əməkdaşlıq prinsipi – sinif rəhbərinin şagirdlərlə münasibəti onların əməkdaşlıq, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanmalıdır. Sinif rəhbərinin çalışmasının məqsədi sinifdə əməkdaşlıq mühiti yaratmaq olmalıdır.

Sinif təşkilat saatı proqramının həyata keçirilməsi üçün tövsiyyələr:

Sinif təşkilat saatı şagirdlərin sosial-şəxsi inkişafına dəstək olur, etimad və hörmət abu-havası yaradır ki, şagirdlər və müəllim-sinif rəhbəri arasında müsbət münasibətin əsası qoyulsun.

Sinif rəhbərinin siniflə çalışması, yaxşı olar ki, sonrakı formada olsun: şagirdlərlə söhbətlər; konkret məsələlərə bağlı müzakirələr; viktorinaların, şənliklərin, ekskursiya və düşərgələrin təşkili; şagirdlərin ehtiyacından irəli gələrək tanınmış şəxslərlə və müxtəlif mütəxəssislər, yaxud təşkilat nümayəndələri ilə görüşlər keçirmək.

Sinif rəhbəri sinfin ehtiyacından irəli gələrək görüşlər və tədbirlər planlaşdırmalıdır. Bu görüşlər davamlı da keçirilə bilər. Sinif rəhbəri valideynlərlə, fənn müəllimləri ilə əməkdaşlıq etməlidir, müxtəlif mədəni və tədris müəssisələri ilə münasibət qurmağa dəstək olmalıdır (məsələn, kitabxanalar, muzeylər və s.).

Sinifdə sonrakı beş istiqamətdə söhbət mövzuları nəzərə alınmalıdır:

1. Şəxsi və mənəvi inkişaf;
2. Ətraf mühitin mühafizəsi mədəniyyəti və sağlam həyat qaydası.
3. Təhlükəsizlik və vətəndaşlıq-vətənpərvərlik haqqında məlumatlandırma.
4. Dünyagörüşünün genişləndirilməsi – incəsənət, ədəbiyyat, texnologiyalar və elmi nailiyyətlərin əhəmiyyəti.

Sinif söhbətləri sinifdə/məktəbdə, eləcə də məktəbdən kənarda, məsələn, ekskursiyalar və muzeyləri nəzərdən keçirən zaman öz nəticəsini verə bilər.

Sinif təşkilat saatının ibtidai siniflərdə spesifikası:

Birinci siniflərlə görüş (35-40 dəqiqə) rəngarəng tapşırıqlarla, müzakirə mövzuları və oyunlarla planlaşdırılmalıdır. Onların həftə sonu keçirilməsi tövsiyə olunur ki, keçirilən tədris həftəsi qiymətləndirilsin və yekunlaşdırılsın. Tapşırıqları seçən zaman qrupların böyüklüyü nəzərə alınır. Yalnız bir növ fəallıqdan ibarət görüş isə yaxşı olar 10-15 dəqiqə davam etsin (məsələn, şagirdlərlə söhbət yaxud yalız didaktik nağıllar dinləmək və seçmək. Birinci siniflərin diqqətinin fəal idarə olunması məhz 10-15 dəqiqə ərzində olmalıdır).

***Gürcü dilindən tərcümə: Aynurə Əliyeva***

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

29 FEVRAL 2020-Cİ İL №004 (108)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN TÜRKİYƏDƏN NƏ ALIR VƏ NƏ SATIR?



Türkiyə Gürcüstanın ən böyük ticarət tərəfdaşı olan ölkələrdən biridir. 2020-ci ilin yanvar ayında Türkiyə ilə ticarət dövriyyəsi 117 073 300 dollar təşkil edib. Hesabat dövründə Gürcüstandan Türkiyəyə ixrac edilən məhsulun dəyərinin göstəricisi 19 862 500 dollara qədər azalıb. Ötən ilin analoji dövründə isə bu göstərici 21 324 500 dollar idi.

2020-ci ilin yanvar ayında idxal artıb. Hesabat dövründə Türkiyədən daxil olan məhsulların dəyəri 97 210 800 dollar təşkil edib. Ötən ilin analoji dövründə idxalın dəyəri 92 283 300 dolla olub.

**Gürcüstandan Türkiyəyə ən çox ixrac olunan məhsullar:**
- Ferro ərintilər – 3 320 400 dollar;
- Trikotaj parçalar – 3 002 900 dollar;
- Ət, balıq və xərçəngkimilərdən hazırlanmış un və qranulit – 1 989 600 dollar;
- Karbon poladdan hazırlanmış yarımfabrikatlar – 1 502 300 dollar;
- Balıq və dəniz məməlilərinin yağı və fraksiyaları – 1 350 300 dollar.

**Türkiyədən Gürcüstana ən çox idxal olunan məhsullar:**
- Qara metal borular, borular və içi boş profillər – 3 222 000 dollar;
- Hazır məhsullar, o cümlədən geyim şablonları – 2 744 000 dollar;
- Üyüdülmüş müalicə vasitələri – 2 628 300 dollar;
- Neft və neft məhsulları – 2 621 800 dollar;
- Sitrus meyvələri – 2 160 800 dollar.

***Mənbə: bpn.ge***

## GÜRCÜSTANDAN QOYUN İXRACI ARTIB



Bir il ərzində iribuynuzlu mal-qaranın ixracı 131,9% artıb. Milli Statistika Xidmətinin məlumatına görə, 2019-cu ildə 155 200 baş qoyun ixrac edilib. 2018-ci ildə isə bu rəqəm 66 917 təşkil edib.

Əsas ixrac ölkələri isə Səudiyyə Ərəbistanı, Azərbaycan, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Bəhreyndir.

Qoyunun ikiqat artan ixracının səbəbi nədir və bu, yerli bazarda qoyun ətinin qiymətinə təsir göstərəckmi?

Gürcüsanın Çobanlar Assosiasiyasının sədri Beka Qonaşvilinin dediyinə görə, bunun səbəbi 2018-ci ildə daha çox qoyun ətinin, 2019-cu ildə isə diri qoyunun ixrac edilməsidir.

“Son dövrdə ətin ixracı azalıb. 2018-ci ildə əsasən ət ixrac edilib, 2019-cu ildə isə diri qoyun ixrac edilib. Bunun səbəbi odur ki, ərəblər həmin dövrdə iranlılara nisbətən baha alırdılar. Bizdə diri mal-qaraya əsasən ərəb ölkələrindən tələbat var. Ramazan bayramı ərəfəsində Dubay, Bəhreyn, Qətər və s. ölkələr diri qoyun aparırlar. İranlılar isə burada kəsir və ət aparırlar”, - deyə B.Qonaşvili bildirib.

Əgər Gürcüstanda xırdabuynuzlu mal-qaranın ixracının artması tendensiyası davam edərsə, yerli bazarda ətin bahalaşmasına səbəb olacaqmı sualına Çobanlar Assosiasiyasının sədrinin cavabı belə olub: “Düzünü desəm, Gürcüstanda qoyun əti bundan artıq nə qədər bahalaşmalıdır bilmirəm. Ancaq yerli bazarda diri xırdabuynuzlu mal-qaranın sayı nə qədər azalarsa qiyməti bahalaşacaq”.

Mənbə: bpn.ge

## İLAN, SUİTİ, QURBAĞA PƏNCƏLƏRİ – GÜRCÜSTANIN XARİCDƏN ALDIĞI EQZOTİK MƏHSULLAR



Milli Statistika Xidmətinin məlumatına əsasən, 2020-ci ilin yanvar ayında Gürcüstanın xarici ticarət dövriyyəsi (deklarasiya edilməmiş ticarətdən kənar) 882.4 milyon ABŞ dolları təşkil edib. Bu isə, ötən ilin müvafiq ayı ilə müqayisədə 5,7 faiz çoxdur.

Statistikaya əsasən, bu məbləğin 262.5 milyon ABŞ dolları (10,0 faiz çox) ixracın, 619.7 milyon ABŞ dollar (3,9 faiz çox) idxalın payına düşür. Mənfi ticarət balansı 2020-ci ilin yanvar ayında 357.1 milyon dollar və xarici ticarət dövriyyəsində 40,5 faiz təşkil edib.

“BusinessPressNews” Gürcüstanın xaricdən aldığı eqzotik, qəribə məhsullarla maraqlanıb. Xarici ticarətlə bağlı cari ilin ətraflı məlumat göstəricisi hələ yayımlanmadığına görə ötən ilin 4-cü rübünə olan məlumatlardan istifadə edilib.

Belə ki, 2019-cu ilin 4-cü rübünə olan göstəricilərə əsasən, idxal olunan məhsullar qrupunun siyahısını təqdim edirik:

- Diri sürünənlər (ilan və tısbağa da daxil olmaqla) – 4.9 min ABŞ dolları;
- Ev göyərçinlərinin, bildirçinlərin, suitilərin, marallarn, qurbağa pəncələrinin və s. əti və ət məhsulları (yeni, soyudulmuş yaxud dondurulmuş) – 0.8 min ABŞ dolları;
- Osminoq (Octopus spp.) – diri, yeni və ya dondurulmuş – 4.7 min ABŞ dolları;
- Digər osminoqlar (diri, yeni və ya dondurulmuşdan başqa) – 4.5 min ABŞ dolları;
- Tısbağa çanağı, balina və digər dəniz məməlilərinin bığı, maral buynuzları, dırnaqlar, caynaqlar və dimdik, bu məhsulların tozu və qalıqları – 0.3 min ABŞ dolları.

Gürcüstana həmçinin diri primatların, diri dəvələrin və digər dəvəkimilərin, ilbizlərin idxalı həyata keçirilir. Doğrudur, 4-cü rübdə qeyd olunan məhsullar ölkəyə daxil olmayıb, amma Statistika Xidmətinin son göstəricilərinə görə, ilbizlərin idxalı 2019-cu ilin 3-cü rübündə 2.7 min ABŞ dolları, diri primatların 2-ci rübdə idxalı 1.9 min ABŞ dolları, diri dəvələr və digər dəvəkimilərin idxalı isə 3-cü rübdə 40.9 min ABŞ dollar təşkil edib.

Mənbə: bpn.ge

## GÜRCÜSTANDAN AVTOMOBİL İXRACI ARTIB



Milli Statistika Xidmətinin məlumatına əsasən, yanvar ayında Gürcüstandan ümumi dəyəri 51 767,8 min ABŞ dolları olan minik avtomobilləri ixrac edilib.

Ötən ay minik avtomobilləri Gürcüstanın ümumi ixracında 19,7% payla ölkənin bir nömrəli ixrac məhsulu olub. İllik müqayisədə bu növ nəqliyyat vasitələrinin ixracı 97,8% artıb.

Hesabat dövründə Gürcüstanın minik avtomobilləri idxalında da artım qeydə alınıb. Belə ki, Gürcüstan 49 968,8 min ABŞ dolları dəyərində avtomobil idxal edib ki, bu da illik müqayisədə 29,5% çoxdur. Minik avtomobilləri Gürcüstanın idxal etdiyi üçüncü əsas mal olub və ümumi idxalda payı 8,1% təşkil edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.